# TEXNİKİ-PEŞƏ TƏHSİLİ SAHƏSİ ÜZRƏ 2012-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

Hazırda Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tabeliyində **104**, Naxçıvan Muxtar Respublikasının tabeliyində isə **4** peşə təhsili müəssisəsi, ümumilikdə **108** peşə təhsili müəssisəsi fəaliyyət göstərir. Bunlardan, **47**-sı peşə liseyi, **2**-si peşə tədris mərkəzi və **59**-u isə peşə məktəbi kimi fəaliyyət göstərir. Peşə məktəblərindən **8**-i cəzaçəkmə müəssisələrinin tərkibində fəaliyyət göstərir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 dekabr 2012-ci il tarixli 282 nömrəli Qərarına əsasən Qusar rayonunda faəliyyət göstərən internat məktəbi Qusar peşə liseyinə çevrilmişdir.  Beləliklə, 2011-ci illə müqayisədə 1 ilk peşə-ixtisas təhsili müəssisəsinin sayı artmışdır.

Fəaliyyət göstərən peşə təhsili müəssisələrinin **45**-i komplekslərdə, **39**-u uyğunlaşdırılmış binalarda, qalanları isə yararsız binalarda yerləşmişdir. Məlum hadisələrlə əlaqədar 2 №-li Ağdam Peşə Məktəbi Ağdam rayonunun Quzanlı kəndində, 1 №-li Füzuli Peşə Məktəbi Füzuli rayonunun Qayıdış qəsəbəsində,  2 №-li Füzuli Peşə Məktəbi Böyük Bəhmənli kəndində, Laçın Peşə Məktəbi Bərdə şəhərində, Kəlbəcər Peşə Məktəbi Goranboy rayonunun Qaraqoyunlu kəndində, Cəbrayıl Peşə Məktəbi isə Biləsuvar rayonu 8 nömrəli qaçqın şəhərciyində yerləşən 14 nömrəli orta məktəbin binasında fəaliyyət göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 2012-2013-cü dərs ilində ilk peşə-ixtisas təhsili müəssisələrinə ümumilikdə 20380 nəfər qəbul planı müəyyən edilmişdir. Bundan 17660 nəfər dövlət vəsaiti hesabına, 2720 nəfər isə ödənişli əsaslarla müəyyən edilmişdir. 2011-2012-ci illərlə müqayisədə ümumilikdə qəbul planı 3485 nəfər, dövlət vəsaiti hesabına 3470, ödənişli əsaslarla isə 15 nəfər artmışdır.

| **İllər** | **Qəbul planı** | **Ümumi şagird sayı** | **Dövlət hesabına** | **Ödənişli əsaslarla** | **İxtisasların sayı** |
|---|---|---|---|---|---|
| **2008-2009** | 14140 | 25184 | 12150 | 1990 | 112 |
| **2009-2010** | 14435 | 25604 | 12350 | 2085 | 132 |
| **2010-2011** | 16165 | 27672 | 14185 | 1980 (+400) | 145 |
| **2011-2012** | 16895 | 27550 | 14190 | 2705 | 96 |
| **2012-2013** | 20380 | | 17660 | 2720 | 129 |

2012-ci ildə ilk peşə-ixtisas təhsili müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində işlər davam etdirilmişdir. Belə ki, regionların sosial-iqtisadi inkişaf və Bakı şəhəri kənd və qəsəbələrinin inkişaf planlarına əsasən ümumilikdə 7 müəssisədə əsaslı təmir işləri aparılmışdır. Qeyd edilən inkişaf proqramlarına əsasən Bakı şəhərində fəaliyyət göstərən 7 və 14 nömrəli peşə məktəbləri və Gəncə şəhərində fəaliyyət göstərən 1, 2 nömrəli peşə liseyləri və 1, 2 və 3 nömrəli peşə məktəbləri əsaslı təmir edilmişdir.

Bundan əlavə, cari ilin sentyabr ayının 14-də Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində Prezident İlham Əliyev və xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə yenidən inşa edilmiş 5 nömrəli texniki peşə məktəbinin açılış mərasimi olub. Hazırda MDB məkanında bənzəri olmayan bu texniki peşə məktəbi 1,2 hektarlıq ərazidə yerləşir. 1969-cu ildən fəaliyyət göstərən məktəb yenidənqurmaya qədər tornaçı, bərbər, maliyyə-uçot ixtisasları üzrə təhsil verib.Məktəb xarici görünüşü və maddi-texniki bazası ilə bərabər profilini də dəyişib, kino, teatr, həmçinin mədəniyyət və incəsənətin digər müvafiq işçi

bazasını peşəkar texniklərlə təmin etməyi qarşısına məqsəd qoyub. 5 nömrəli texniki peşə məktəbində kino, video çəkiliş üzrə operatorlar, səhnə işıq və qrim ustaları, kino montajçılar, səs operatorları, teatr, kino və telestudio dekoratorları, dərzilər, kompyuterlərin təmiri və xidməti üzrə texniklər hazırlanacaq.

"Ot Kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardıcı Proqramı" çərçivəsində həyata keçirilən tədbirlər də diqqətəlayiqdir. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Yaponiyanın Azərbaycandakı səfirliyi və Azərbaycan Maarifçi Gənclər Təşkilatının birgə təşəbbüsü "Bakının 2 nömrəli peşə liseyində çilingər və dülgər kursları üzrə peşə təhsili şəraitinin yaxşılaşdırılması" layihəsi üzrə qrant müqaviləsi imzalanmışdır. Layihənin əsas məramı 2 nömrəli Bakı peşə liseyində çilingər və dülgər kurslarında təhsil şəraitini yaxşılaşdırmaq, məcburi köçkün ailələrindən olan gənclərin peşə təliminə cəlb edilməsi vasitəsilə onların sosial-müdafiəsinin gücləndirilməsinə yardım etməkdir. Bu layihə üçün Yaponiya hökumətinin ayırdığı qrant yardımının ümumi məbləği 99990 ABŞ dollarıdır. Təhsil Nazirliyi isə 50 min manat məbləğində vəsait ayırmışdır. Layihənin həyata keçirilməsi nəticəsində hazırda peşə təhsili müəssisəsində oxuyan şagirdlərin müvafiq peşələrə yiyələnmələri üçün daha səmərəli mühit formalaşacaq, peşə liseyinin ərazisində, həmçinin yaxın ərazilərdə məskunlaşmış məcburi köçkün və aztəminatlı ailələrin övladlarının da qısamüddətli kurslar vasitəsilə müvafiq peşə sahibi olmasına şərait yaradılacaqdır.

Azərbaycan hökuməti və Heydər Əliyev Fondu ilə YUNESKO arasında "Azərbaycanın texniki peşə təhsilinin təkmilləşməsi" layihəsi çərçivəsində Fərdi kompüter operatoru və Otel nəzarətçisi ixtisasları üzrə əlavə olaraq dərsliklərin və dərs vəsaitlərin çapı davam etmişdir.

Fəaliyyət Planının 5.17-ci bəndinin icrasını təmin etmək məqsədilə 2012-ci ildə ilk peşə-ixtisas təhsili müəssisələri üçün dərsliklərin hazırlanması prosesi davam etmişdir. Dövlət sifarişi ilə çap edilən dərsliklərlə yanaşı şöbə müxtəlif yerli və beynəlxalq qeyri-hökümət təşkilatları ilə birlikdə həyata keçirən layihələr çərçivəsində də müasir məzmunlu dərsliklərin hazırlanmasına önəm vermişdir. Ümumilikdə 2012-ci ildə 15 adda dərslik çap edilmişdir. Çap edilən dərsliklər aşağıdakılardır:

| **Sıra №-si** | **Dərsliklərin adı** | **Sayı** |
|---|---|---|
| **1.** | Estetika, peşə etikası və psixologiya | 15000 |
| **2.** | Əməyin mühafizəsi | 15000 |
| **3.** | Materialşünaslıq (Dülgər-xarrat işi) | 1000 |
| **4.** | Təsərrüfat fəaliyyətinin təhlili | 1000 |
| **5.** | Kalkulyasiya və hesabat | 1000 |
| **6.** | Materialşünaslıq (Qaynaq işi) | 1500 |
| **7.** | Elektrovozun quruluşu və təmiri | 500 |
| **8.** | Video çəkilişi texnologiyası | 500 |
| **9.** | Məişət cihazlarının təmiri texnologiyası | 1300 |
| **10.** | Qida fiziologiyası, sanitariya və gigiyena | 1500 |
| **11.** | Aqronomiyanın əsasları | 2000 |
| **12.** | Ərzaq və qeyri-ərzaq malları ticarətinin təşkili və reklam işi | 1000 |
| **13.** | Neft və qaz işinin əsasları | 500 |
| **14.** | Neftin və qazın emalının texnologiyası | 500 |
| **15.** | Unlu qənnadı məmulatlarının hazılanma texnologiyası | 1000 |

Avropa Komissiyasının dəstəyi və Almaniya Hökümətinin texniki köməkliyi ilə həyata keçirilən “KƏnd Təsərrüfatı sahəsində İlkin Peşə Təhsilinin Möhkəmləndirilməsi” TVİNNİQ layihəsi çərçivəsində Almaniyaya tədris səfəri təşkil edilmişdir. Səfər çərçivəsində Almaniyanın kənd təsərrüfatı sahəsi üzrə ixtisaslaşmış bir sıra peşə təhsili müəssisələrinə səfər edilmiş, dual sistemi üzrə kadr hazırlığı sistemi ilə tanışlıq olmuşdur.

Layihə çərçivəsində “Kənd Təsərrüfatı sahəsində ilk peşə-ixtisas təhsili sahəsində kadr hazırlığı” üzrə Konsepsiya tərtib edilərək hökümətə təqdim edilmişdir. Həmçinin layihə çərçivəsində pilot müəssisəsə kimi seçilən Göyçay peşə liseyində müvafiq emalatxanaların yaradılması üzrə iş həyata keçirilmişdir. Bununla yanaşı əmək bazarının təhlili nəticəsində müəyyən edilmiş 5 ixtisas üzrə həm peşə standartları, həmçinin yeni təhsil proqramları işçi qrupları tərəfindən işlənib hazırlanmışdır.

Bundan əlavə, Azərbaycan Respublikası Höküməti ilə Belarusiya Höküməti arasında cari ilin oktyabrında imzalanmış müqaviləyə əsasən 4 nömrəli Bakı peşə liseyində “Qaynaq” ixtisası üzrə Resurs Mərkəzin yaradılmasına başlanılmışdır.

Peşə yönümü işinin təkmilləşdirilməsi və gənclərin daha çox peşə təhsilinə istiqamətləndirilməsini təşkil etmək üçün Edumedia Azərbaycan təşkilatı ilə birlikdə “Peşə Təhsilinə Dəstək Sistemi”nin yaradılmasına başlanılmışdır. Dövlət proqramına ayrılan vəsait hesabına maliyyələşdirilən layihə çərçivəsində peşə təhsili müəssisələri, peşələrin xüsusiyyətləri, iş şəraiti haqqında məlumat yerləşdirməklə yanaşı, həmçinin peşə təhsili müəssisələrinin məzunları özləri haqqında məlumatı internet səhifəsində yerləşdirmək imkanı qazanacaqlar. Bu isə, öz növbəsində işəgötürənlər üçün işçi atarmaq imkanını sadələşdirəcəkdir.

Əmək bazarında işçi qüvvəsinə olan tələbatı öyrənmək məqsədilə Təhsil Nazirliyi artıq ikinci ildir ki, Məhsuldarlıq və Rəqabətədavamlılıq Mərkəzi ilə birlikdə layihə həyata keçirir. Bu layihə çərçivəsində Dağlıq Şirvan və Aran iqtisadi rayonlarının əmək bazarı təhlil edilmiş, peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında tərəfdaşlıq əlaqələrinin vəziyyəti araşdırılmış və həmçinin təhsil müəssisələrinin vəziyyətinin monitorinqi həyata keçirilmişdir.